# "İnan mənə" tamaşasının Qazax Dövlət Dram Teatrında böyük uğuru

**Çagdaş ədəbiyyatımızın ən öndə gələn nümayəndələrindən biri, yazar, publisist, jurnalist, aktyor, rejissor, Respublikanın Əməkdar incəsənət xadimi Agalar İdrisoglu zəngin yaradıcılıq palitrasına malik olan sənətkarlarımızdan biridir.**

Son qırx ildə dramaturq kimi fəaliyyət göstərən Ağalar İdrisoğlu müasir günümuzun neqativ, kəskin konflikti, dərin ziddiyyətli dram əsərləri ilə gündəmə gələrək, dövrün aktual, yuksək problemli movzularını, ölkəmizdə baş verən neqativ halları, yüksək mövqelərdə çalışan üzdəniraq məmurların xalq kütləsinə yuxarıdan aşaği baxması, həyat şərtlərinin və güzaranin agır olması, guç strukturlarının "mənəm-mənəm" deməsi və qeyri-məhdud özbasınalıgı, dərəbəyliyin baş alıb getməsi ziyalıların bir parça çörəyə möhtac qalması, eləcə də yüksək rütbəli məmurların insanların çoxunu müxtəlif yollarla mədahlığa təhrik etməsi, məmləkətin bütövlukdə bir qrup adamın inhisarında olması, ailələrin çoxunun maddi ehtiyac ucbatından dağılması, oğurluq və narkomaniya hallarının ölkəni başına götürməsi və sairə bu kimi yüzlərlə qorxunc, dramatik konfliktli hadisələri öz pyeslərini baslıca ideya istiqaməti dogrultusunda qələmə almasdir.

Lakin Ağalar İdrisoğlu bu qeyri-pozitiv təzahüratları göstərməklə heç bir zaman pessimizmə qapılmır. Əksinə bunun yollarını arayır, dahi Nizaminin fəlsəfi-estetik dəyərlərinə istinadən bütün bu təzadların ədalət yolu ilə həll olunacağına dərin ümid bəsləyir.

Bu ideya onun "Məhəbbətsiz həyat", "Məhkəmədən əvvəl məhkəmə", "Teleqram", xüsusilə də "İnan mənə" pyeslərində öz əksini tapır.

Müəllifin keçən əsrin səksəninci illərin sonlarında qələmə aldığı "İnan mənə" pyesi yerli dramaturqlar uçün təsis olunmuş müsabiqədən qalıb çıxaraq, Moskvaya növbəti müsabiqəyə göndərilmiş və bu pyes ümumittifaq gənc dramaturqlar müsabiqəsində 48 pyesin arasından yüksək savadlı, geniş təfəkkürlü, tələbkar münsiflər üzvləri tərəfindən seçilərək, 3- cü dərəcəli mükafata layiq görülmüşdür.

Müxtəlif teatrların səhnəsində uğurla tamaşaya hazırlanmıs bu pyesə Qazax Dövlət Dram Teatrının yaradıcı kollektivi ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq müraciət etmiş və iyun ayının 10-da müəllifin eyni adlı pyesi əsasında maraqlı tamaşaya imza atmışdır.

**Tamaşada hadisələr respublikamızda ictimai-siyasi mühitin gərgin cağının yaratdığı sosial problemləri və problemlərdən doğan sosial ziddiyyətləri ön plana cıxarmaqla həmin dönəmin (1988-1992) sosial yasamında müxtəlif çətinliklərlə qarsı-qarsiya gələn ziyalıların həmin təzadlarla həyat mücadiləsini əks etdirir.**

Qarışıq, anlasılmaz və dərəbəylik dünyasını xatırladan xaotik bir durumun - antidemokratiyanın baş alıb getdiyi, özbasınalıq və herc-mercliyin hökm sürdüyu və az qala anticəmiyyətin öz "qanunlarını" diktə etdiyi bu dönəm, Elçin Poladlı kimi prinsipial, dürüst, öz məslək və əqidəsində daima sabit qalan ziyalıları öz cənginə alsa da, onlar qeyri-bərabər mübarizədə bu çətinliklərə sinə gərərək, vətənə, xalqa arxa çevirmir, bu məhrumiyyətlərə təhəmmül edərək, anticəmiyyətin püskürdüyu qorxunc viruslara qarşı yorulmadan mübarizə aparır və nəticə etibarı ilə təmiz və pak mənəviyyatları ilə öz arzu və istəklərinə nail olurlar.

Əsərin əsas qəhrəmanı Elçin Poladlı soyadını daşıdığı kimi polad bir iradəyə malikdir. Vətəni çətin gündə qoyub maddi və mənəvi problemlərini həll etmək məqsədi ilə başqa ölkələrə yürüş edən "ziyalılardan" fərqli olaraq Elçin Poladlı maddi, mənəvi-psixoloji, habelə fiziki təzyiqlərə davam gətirərək, hər bir xoş olmayan başlangıcın xoş bir sonluqla nəticələnəcəyi kriteriyasına nikbinliklə yanaşır, vətənin, ölkənin, xalqın dar bir günündə müsəlləh əsgər kimi onun səngərində qalır, anticəmiyyətin yaratdığı sosial təzadlara üsyan edir.

Bu rolu oynayan aktyor Yusif Qoca öz qəhrəmanını mətin, prinsipial, döyuskən bir qəhrəman kimi şərh etməklə, tamaşanın rejissoru, Əməkdar artist Xəzər Gəncəlinin traktovkasının məntiqindən gələn əsas fikri uğurla ön plana çəkməyə calışır. Onun ifasında Elçin Poladlı obrazı məslək və əqidəsində heç bir şeyə güzəştə getməyən, korrupsiyaya, rüşvətə və hər cür fənalığa qarşı baş qaldıran yorulmaz bir döyüşçüdür. Tamasanın baslanğıcından sonuna qədər fiziki, mənəvi təzyiqlərə məruz qalsa belə Elçin Poladlı (Yusif Qoca) əyilmir, çökmür ətraf mühitdə meydan sulayan avantüristlərlə qeyri- bərabər mübarizəyə atılır.

Tamaşada onun həyat yoldaşı Aysel rolunu oynayan aktrisa Zəmanə Dərviş öz orijinal ifa tərzi ilə ciddi maraq doğurur. Zəmanə Dərviş Aysel obrazı ilə müasir Azərbaycan qadınına xas olan özəlliklə-ri real boyalarla təsvir edərək, onun bu günkü yaşam tərzini, maddi və mənəvi sıxıntılarını, məişət problemlərini, bəzən həyat şərtlərindən təngə gəlib şikayət etsə də dar ayaqda təzyiqlərə məruz qalan ərinə arxa durmasını, mənən ona dəstək olmasını çox canlı, təbii, orijinal şəkildə oynayır. Bu bir daha onu göstərir ki, Zəmanə Dərvişin simasinda bizim regional teatrlarımızda istedadlı aktrisalar yox deyildir.



Tamaşada maraq doğuran obrazlardan biri də istedadlı aktrisa Minayə İbrahimovanın yaratdığı Yasəmən xanımın xarakteridir.

Zahirdə mələk, batində kələk olan Yasəmən ilk baxışda öz evində kirayə saxlayıb barındırdığı bacısı qızı Ayselin və onun həyat yoldaşi jurnalist olan Elçin Poladlının qaygısını çəkən, onların sosial problemlərini hər an həll etməyə cəhd göstərən, dar ayaqda yardıma gələn təəssübkeş qadın xarakteri təsiri bağışlayır. Lakin hadisələrin tədrici inkişafı nəticəsində Minayə İbrahimova öz qəhrəmanının iç üzünü məharətlə üzə çıxarmaqla onun merkantil maraqlardan başqa heç nəyi düsünməyən, mənəvi dəyərləri heçə sayan bir obraz kimi təqdim edir.

**"Hamı necə, sən də elə" prinsipini Elçinə hər addımbaşı xatırlatmaqla onu əyri yollara, bəd əməllərə təhrik edir.**

Bu həmin üzdəniraq prinsipdir ki, ona riayət edilmədiyi təqdirdə cəmiyyətdən çıxdaş edilmə, bütün həyat şərtlərindən məhrum olma təhlükəsini təlqin edir. Həyatda sağ qalmanın, asayiş və rifah içərisində yasamanın əsas şərti budur: "Hamı alır, sən də alacaqsan! Əks təqdirdə ölümə məhkumsan!.."- tendensiyasını rəhbər tutan Yasəmən bu acı həqiqətləri göstərməklə nə yazıq ki, real gerçəklikdə baş verən ağrılı-acılı hadisələrə eyham vurur

Tamaşada professor Əmirov obrazına da lazım olan qədər yer verilmişdir. Həcm etibari ilə epizodik bir xarakter təsiri bağışlayan bu surət cəmi bir şəkildə görünsə də hər iki aktyorun istər Aydın Orucovun, istərsə də Sərdar Rüstəmovun ifasında yaddaslara həkk olunur.

Rüsvətxorlugun, əli əyriliyin, xudbinliyin, mənfəətpərəstliyin, hər cür yaramazlığın canlı mücəssəməsi olan bu obrazı hər iki aktyor fərqli üslublarda oynayır.

Aydən Orucovun ifasnda bu obraz zahirən xalqın, dövlətin maragını qoruyan, əslində isə rüşvət bataqlığının içində üzən, gəncləri bir küll halında "ağ ölümə" sürükləyən obraz təsiri bağışlayirsa, bacarıqlı aktyor Sərdar Rüstəmovun yozumunda isə daha cox, düzlükdən, demokratiyadan, bərabərlikdən danışan gerçəkdə isə uyuşdurucu ticarəti ilə məşğul olub, gəncləri, cəmiyyəti bəd əməllərə təhrik edən narkobaron surəti təqdim olunur.

Tamaşada Elşad Əliyevin (Vüqar), Əhməd Musayevin (Emin) obrazları da öz ifa tərzləri ilə diqqətdən yayinmir. Elçin Poladlı kimi mətin, əzmli, fədakar, öz xalqını, ailəsini sevən, fikir və əqidəsində daim dəyişməz qalan ziyalılarımızın həyat və məişət problemlərini göstərən bu maraqlı tamaşanın quruluşçu rejissoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Respublikanın Əməkdar artisti Xəzər Gəncəlidir. Uzun müddət qardaş Türkiyənin Mərmərə Universitetində rejissorluq və aktyorluq sənətindən dərs deyən Xəzər Gəncəli bu tamaşada öz pedaqoji imkanları ilə rejissorluq səriştəsinin imkanlarını sintez edərək maraqlı bir tamaşaya imza atmağa müvəffəq olmuşdur. Tamasanın rəssamı Səyyad Məmmədov, musiqi tərtibatçısı Vahid Bayramovdur. Onlar da öz işlərinin öhdəsindən çox peşəkar səviyyədə gəlirlər.

**Ulu Öndərin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "İnan mənə" tamaşasının tezliklə geniş tamasaçı kütləsinə nümayişi nəzərdə tutulur. İnanırıq ki, bu tamaşa tamaşaçılar tərəfindən çox maraqla qarşılanacaq və onların daxilində olan problemlərin necə reallaşdığını görəcəklər.**

**Bəxtiyar CƏFƏRLİ**

Azad Azərbaycan.- 2023- cü il.- 22 iyun.- S. 6.